**Sadıq Ələkbər oğlu Dadaşov**
**1929-1946**
**Professor –memarlıq tarixçisi, Azərbaycan sovet memarlığının banilərindən biri. SSRİ Memarlıq Akademiyasının müxbir üzvü (1941). Azərbaycan SSR EA-nın akademiki (1945). Azərb. SSR əməkdar incəsənət xadimi (1940). SSRİ Dövlət mükafatı laureatı (1941).**



Sadıq Dadasov 1929-cu ildə M. Əzizbəyov adına Bakı Politexnik İnstitutunun İnşaat fakültəsini bitirmişdir.

O, 1944-cü ildə Azərbaycan SSR Xalq Komissarları Soveti yanında Memarlıq İşləri İdarəsinin ilk rəisi olmuşdur.

O, "Lenin", "Qırmızı Əmək Bayrağı" ordenləri və medallarla təltif edilmişdir. Sadıq Dadaşov 24 dekabr 1946-cı ildə vəfat etmişdir.

Sadıq Dadaşov Azərbaycan memarlıq irsinin ilk elmi tədqiqatçısıdır.

O, Azərbaycan memarlığı tarixinin öyrənilməsinin əsasını qoymuş, bu məqsədlə 1934-1940 və 1944-1946 illərdə Azərbaycanın bir sıra rayonlarına elmi səfərlər təşkil etmişdir.

Sadıq Dadaşov memarlıq və nəzəri əsərlərini görkəmli Azərbaycan memarı və memarlıq tarixçisi Mikayıl Hüseynovla birgə yaratmışdır. Sadıq Dadaşovun layihəsi əsasında Bakıda və respublikanın digər şəhərlərində çoxlu yaşayış, ictimai və mədəni-məişət binaları tikilmiş və bu memarlıq əsərləri Azərbaycan memarlığının inkişafında böyük rol oynamışdır.

Sadıq Dadaşov 1929-1933 illərdə 23 tikilinin layihəsini vermişdir. Bunlara Bakıdakı fabrik-mətbəx (Bayılda), Azərbaycan Sənaye İnstitutunun yeni binası (indiki Azərbaycan Dövlət Neft Akademiyası), İncəsənət işçiləri üçün ev, bir sıra yaşayış binaları kompleksi, Qazaxdakı Pedaqoji Texnikumun binası aiddir.

Sadıq Dadaşovun əsas işlərinə Azərbaycan Texniki Universitetinin (1935), "Nizami" kinoteatrının (1934), Bakı Musiqi Akademiyasının (1936), Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muze-yinin binası (1940) və s. aiddir. Sadıq Dadaşov Nizami Gəncəvinin 1946-cı ildə Gəncədə, 1949-cu ildə Bakıda qoyulmuş abidələrinin layihə müəllifidir.

Sadıq Dadaşov bir neçə elmi əsərin müəllifidir. Əsas elmi əsərləri: Pamətniki azerbaydjanskoy arxitekturı v Baku. Moskva, 1938. Arxitekturnıe pamətniki Baku. Moskva, 1946. Arxitektura Azerbaydjana III-XVIII vv., Moskva, 1948.Arxitektura sovetskoqo Azerbaydjana. B.-M. 1950. Ansamblğ dvorüa Şirvanşaxov v Baku. Moskva, 1956. Bakının memarlıq abidələri. Bakı, 1955.